# Milli ideyanın müəllifi, müstəqil dövlətimizin qurucusu

**Milli ideya - ölkə əhalisinin mütləq əksəriyyətinin qəbul etdiyi ideya, bütöv bir xalqın inkişaf istiqamətini və məqsədlərini müəyyənləşdirən milli düşüncədir. Ötən əsrdə ikinci dəfə müstəqillik əldə edən Azərbaycanda hakimiyyətə gələnlər cəmiyyəti milli ideya ətrafında birləşdirməyə qadir deyildilər. Bu naşı və səriştəsiz, qrup mənafeyi güdən və dövlət idarəçiliyini bacarmayan siyasi dəstələr hətta milli azadlıq ideyasının özünü belə gözdən salır, xalqın uzun illərdir gözlədiyi müstəqilliyi xaos və özbaşınalıq mənbəyinə çevirirdilər. Məhz bu amil 1993-cü ilin iyununda Azərbaycan dövlətçiliyini iflasa uğramaq, onsuz da erməni işğalına məruz qalan ölkəni parçalanmaq həddinə gətirib çıxarmışdı... Yaxşı ki, vətənsevər milli qüvvələr bu aqibəti qabaqcadan görərək, Naxçıvana üz tutub, xalqın həqiqi və şəriksiz lideri Heydər Əliyevin öndərliyi ilə qurtuluş hərəkatının əsasını qoymuşdular.**

**Məhz bu hərəkat Azərbaycanı xilas etdi...**

**Məhz Heydər Əliyevin varlığı bu millətə ümid verdi...**

**Məhz Qurtuluş hərəkatının zəfəri bugünkü möhtəşəm dövlətçiliyimizin təməli oldu...**



Ötən ay biz Qurtuluş zəfərinin 25-ci ildönümünü qeyd etdik. Biz hər dəfə həmin zəfər anını xatırladıqca Azərbaycanın müstəqilliyini qorumaq üçün öz liderinin və onun müəyyənləşdirdiyi ideyaların ətrafında sıx birləşən xalqımızın nə qədər düzgün seçim etdiyini dönə-dönə təsdiqləyirik. Milli qurtuluş yolumuz heç də asan və və hamar deyildi: ölkəni uçuruma aparan siyasi hakimiyyət ulu öndər Heydər Əliyevin və onun yaratdığı Yeni Azərbaycan Partiyasının demokratik addımlarının qarşısına müxtəlif manevələr çıxarır, xalqın arzu və istəyinin əleyhinə gedirdi. Lakin hakimiyyət böhranı dərinləşib, hərbi çevriliş və vətəndaş müharibəsi təhlükəsi gerçəkləşəndə Heydər Əliyevin xilaskarlıq missiyasını onlar da qəbul etmək məcburiyyətində qaldılar.

Əslində, ulu öndər hələ ötən əsrin altmışıncı illərindən doğma xalqını gerilikdən, tənəzzüldən qurtarmaq vəzifəsini yerinə yetirməyə başlamışdı: əvvəlcə dövlət təhlükəsizliyi orqanlarında yüksək vəzifə tutarkən milli ziyalı təbəqəsinin görkəmli nümayəndələrini sovet rejiminin təqiblərindən qorumuş, onların milli mənəvi dəyərləri təbliğ və tərənnüm edən fəaliyyətinə şərait yaratmış, respublikanın rəhbəri seçildikdən sonra isə bütövlükdə xalqın mədəni, sosial, iqtisadi inkişafını təmin etmiş, gələcək müstəqillik üçün bütün sahələrdə lazımi potensial, milli dirçəliş və azadlıq üçün möhkəm zəmin formalaşdırmağa nail olmuşdu. Təsadüfi deyildir ki, həmin dövrdə yaradıcı ziyalılarımızdan heç biri siyasi dissident kimi təqibə məruz qalmamış, incidilməmişdir. Ulu öndərin özü dövlət müstəqilliyinin bərpasından sonra bu məsələyə münasibət bildirərkən demişdir ki, "biz dissident axtarmırdıq, əgər axtarsaydıq, çox dissident çıxarmaq olardı. ...Dissident sayılanların əsərlərini biz qəlbən qəbul edirdik və onların özünə yol tapması üçün imkanlar yaradırdıq. Beləliklə, həmin müəlliflərə öz həmrəyliyimizi bildirirdik".

Yaradıcı ziyalıları qoruyan, milli özünüdərk, milli qürur məsələsində onlarla həmrəy olan və öz milli təəssübkeşliyini açıq-aşkar nümayiş etdirən Heydər Əliyevin ilk dəfə respublika rəhbəri seçildiyi 1969-cu ilin 15 iyulu, haqlı olaraq, Azərbaycanın tarixində milli intibahın başlanğıcı kimi səciyyələndirilir. Ulu öndər birinci şəxs kimi fəaliyyətə başlayarkən ilk ictimai görüşünü Bakı Dövlət Universitetində keçirməklə xalqın elm və təhsil sahəsində inkişafına nə qədər böyük önəm verdiyini göstərdi. Bu görüşdə respublika rəhbərinin, əvvəlkilərdən fərqli olaraq, doğma ana dilində səlis və aydın nitq söyləməsi onu dinləyən kontingentdə dərin milli qürur hissi doğurdu.

Milli özünəməxsusluğun şərtləndirən amillər - tarix, dil, mədəniyyət, təhsil məsələləri həmin dövrdə ulu öndərin diqqət yetirdiyi ən ümdə məsələlər idi. Bununla yanaşı, xalqın gücü və enerjisi həm də respublikanın sosial-iqtisadi inkişafına, sənayenin, kənd təsərrüfatının, infrastruktur sahələrinin yüksəlişinə yönəldilirdi.

Rəsmi sənədlər və statistika, eləcə də hazırda da həyatda olan canlı şahidlər təsdiq edirlər ki, o dövrdə Azərbaycan özünün sosial-iqtisadi vəziyyətinə görə keçmiş ittifaq dövlətinin geridə qalmış əyalətlərindən biri sayılırdı. İqtisadiyyatda, idarəetmədə özünü aşkar şəkildə göstərən intizamsızlıq, istər-istəməz, mənəvi-mədəni mühitə də mənfi təsir edir, qeyri-sağlam ictimai münasibətlərə zəmin yaradırdı. Cinayətkarlıq hallarının artması, haqq-ədalətin pozulması cəmiyyətdə bədbinliyə, inamsızlığa rəvac verirdi. Zəngin maddi resursları, təsərrüfatçılıq ənənələri və iqtisadi potensialı olan respublikanı tənəzzüldən xilas etmək üçün prinsipial və qətiyyətli, saf mənəviyyatlı və geniş dünyagörüşlü bir rəhbərə ehtiyac vardı. Heydər Əliyev özünün şəxsi keyfiyyətləri və idarəçilik istedadı ilə məhz belə bir rəhbər olmağa qadir idi, bu qüdrətini də respublikada ali vəzifəyə təyin olunduqdan sonra çox qısa bir müddətdə sübuta yetirdi. O, ciddi və tələbkar rəhbər olmaqla yanaşı, idarəçilikdə demokratik prinsipləri də bacarıqla tətbiq edirdi. Totalitar rejimin ehkamlarını sındıraraq Heydər Əliyev respublikaya rəhbərliyə başladığı ilk günlərdən kadrların seçilib yerləşdirilməsinin mütərəqqi formasını təklif edərək deyirdi: "Kadrları açıq-aşkar, kütlələrin gözü qabağında seçmək, onların haqqında kollektivin, adamların, iş yoldaşlarının rəyini nəzərə almaq lazımdır. Yalnız belə olduqda kadrların seçilməsi və yerləşdirilməsindəki bir çox səhvin qarşısını almaq, həmin sahədə işimizin səviyyəsini xeyli yüksəltmək olar".

Yeri gəlmişkən qeyd edim ki, ulu öndər Azərbaycanda kadrların milliləşdirilməsi sahəsində də çox mühüm işlər görmüş, bütün dövlət orqanlarında istedadlı və bacarıqlı azərbaycanlı mütəxəssislərin yerləşdirilməsi ilə yanaşı, respublika üçün vacib olan ixtisaslar üzrə keçmiş ittifaqın ən nüfuzlu ali ocaqlarına oxumağa göndərilən yerli gənclərin sayının dəfələrlə artırılmasına, həmçinin, Bakıda hərbi məktəbin açılmasına nail olmuşdu.

Bu gün müstəqil dövlətimizin ideoloji əsası olan azərbaycançılıq məfkurəsinin ilk rüşeymləri də məhz Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə intişar tapmışdır. Əgər həmin dövrdə Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən işlər olmasaydı, hazırkı dövlət müstəqilliyimizin dönməzliyini təmin etmək çətin olardı. Məhz buna görə də inamlı deyirik ki, müstəqil Azərbaycan Heydər Əliyevin ideyalarından doğulan mükəmməl bir əsərdir. İndi sürətli sosial-iqtisadi inkişaf yolunda olan, müasir dünyanı təhdid edən müxtəlif təhlükələrdən məharətlə qorunan və daim tərəqqi edən müasir Azərbaycanın bütün uğurlarının, nailiyyətlərinin əsasında xalqımızın ümummilli lideri Heydər Əliyevin ideyaları dayanır. Bu ideyalar xalqımızı birləşdirir, onun yaradıcı qüvvəsini möhtəşəm quruculuq prosesinə səfərbər edir. Bu gün siyasi mövqeyindən asılı olmayaraq hamı etiraf edir ki, Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik xalqımız üçün ən dəyərli mənəvi-ideoloji sərvətdir.

Bu birliyin ən bariz ifadəsini biz ulu öndərin davamçısı, möhtərəm İlham Əliyevin prezident seçkilərindəki hər bir qələbəsində görmüşük. Bu il aprelin 11-də keçirilmiş seçkilərdə də xalqımız Heydər Əliyev ideyalarını öz idarəçilik istedadı ilə daha da zənginləşdirən və uğurla reallaşdıran cənab İlham Əliyevə etimad göstərdi, onu özünə rəhbər seçdi. Cənab Prezident bu ümumxalq dəstəyini yüksək qiymətləndirərək demişdir: "Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm... Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir".

Milli ideyadan qaynaqlanan milli birliyin ən möhtəşəm təcəssümü özünü müstəqil dövlətçiliyimizin qorunub saxlanılmasında və daha da möhkəmləndirilməsində göstərir. Ulu öndərin azərbaycançılıq məfkurəsi cənab İlham Əliyevin siyasi xəttinin ideoloji əsasını təşkil etməklə müstəqil dövlətimizin inamla irəli addımlamasına güclü təkan verir. Bu yerdə müasir Azərbaycan ictimai-fəlsəfi fikrinin canlı korifeyi, görkəmli dövlət xadimi, akademik Ramiz Mehdiyevin ictimai-siyasi həyatımızın dəmir məntiqindən qaynaqlanan sözlərinə istinad etmək lazım gəlir: "Böyük dövlət xadimi kimi İlham Əliyevin malik olduğu şəxsi keyfiyyətlər onu tarixi miqyaslı siyasətçi, millətin kollektiv tarixi təcrübəsini dövlət quruculuğu istiqamətinə yönəldən ali idarəçilik funksiyalarını yerinə yetirməyə sövq edir. Azərbaycan cəmiyyəti və dünya birliyi bu fenomeni 2003-cü ildən bugünə qədər müşahidə edə bilir".

İlham Əliyev fenomeni milli ideyanın gerçəkləşməsində şəxsiyyət və liderin amilinin önəmli rolunu bir daha təsdiqləyir. Dövlətimizin başçısının müdrikliyi və uzaqgörənliyi, qətiyyəti və cəsarəti bugünkü milli inkişafımız üçün ən etibarlı təminatdır. Onun rəhbərliyi altında son 15 ildə qazanılan nailiyyətlərin miqyası çox böyükdür. Ən başlıcası, bu müddətdə Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamışdır. Əslində, bu illər ərzində dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim də bölgəmizdə təhlükəli proseslər baş vermiş, qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri olmuşdur. Lakin məhz cənab İlham Əliyevin apardığı mükəmməl siyasət daxili risklərin hamısının aradan qaldırılmasını, xalqımızın və ölkəmizin xarici risklərdən etibarlı şəkildə qorunmasını təmin etmişdir. Sabitlik və davamlı inkişaf Azərbaycanın çox böyük nailiyyətidir.

Bu gün müstəqil dövlətimiz cənab Prezident İlham Əliyevin rəhbərliyi altında sürətlə inkişaf edərək, bölgənin lideri səviyyəsinə yüksəlmişdir. Bütün sahələrdə əldə edilmiş nailiyyətlər ölkə rəhbərinin düzgün və düşünülmüş siyasət yeritdiyini, ümummilli mənafeləri bütün səviyyələrdə layiqincə qoruduğunu göstərir. Ölkəmizin yeganə ağır problemi olan Qarabağ məsələsinin sülh və danışıqlar yolu ilə həlli istiqamətində məqsədyönlü iş aparılmaqla yanaşı, işğal altındakı ərazilərin hərbi vasitələrlə azad edilməsinə də dövlətimiz, onun güclü ordusu tam hazırdır. İki il əvvəl məlum Aprel döyüşləri, bu yaxınlarda isə Naxçıvan MR-də gerçəkləşdirilən "Günnüt əməliyyatı" qəhrəman əsgər, gizir və zabitlərimizin Ali Baş Komandanın əmrini yüksək səviyyədə yerinə yetirmək əzmində olduqlarını göstərdi. Cənab Prezidentin bu günlərdə ordumuzun 100 illiyi münasibətilə keçirilən hərbi paradda dediyi sözləri yada salaq: "Biz istəyirik ki, münaqişə sülh yolu ilə həll olunsun və Azərbaycanın apardığı siyasət bunun əyani sübutudur. Ancaq bir daha demək istəyirəm ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Biz çox güclü ordu yaratmışıq. Düşmən bilməlidir ki, onun bir dənə də olsun hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin. Düşmənin bütün hərbi obyektləri, bütün strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən məhv edilə bilər".

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin sabahına, özünün başa çatdıra bilmədiyi quruculuq işlərinin davamçıları tərəfindən uğurla icra ediləcəyinə inanırdı. Əminliklə demək olar ki, ümummilli liderin arzuları çin oldu. Azərbaycanın şərəfli tarixinin son 50 illiyinə özünün qüdrətli imzasını atmış, xalqın qəlbində əbədi taxt qurmuş Heydər Əliyevin müəyyənləşdirdiyi milli inkişaf yolu bizi daha böyük zəfərlərə, qələbələrə aparır.

**Tağı ƏHMƏDOV,**
**YAP Yasamal Rayon Təşkilatının sədri.**